BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Humanitar elmlər seriyası 2015

UOT 94(479.24 )

# QLOBALLAŞMA DÖVRÜNDƏ HEYDƏR ƏLİYEVİN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRƏ MÜNASİBƏTİ

**S.Ş.BƏHRƏMOVA**
***AMEA-nınA.A.Bakıxanov ad. Tarix İnstitutu***
***sevil_behremova@mail.ru***

*Məqalədə geosiyasi əhəmiyyətinə görə Şərq və Qərb arasında olan münasibətlərdə körpü rolunu oynayan Azərbaycanın dünyəvi dövlət quruculuğunda inteqrasiya prosesinə öz tövhəsini verə bilməsindən bəhs olunur. Ömrünü vətəninə və xalqına həsr etmiş ümummilli lider Heydər Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasında, mədəniyyətimizin inkişafında müstəsna xidmətlər göstərmiş böyük dövlət xadimi olmaqla yanaşı, öz mahiyyətinə, siqlətinə və dəyərinə görə milli-mənəvi sərvət olan kulturoloji irsin müəllifi olması faktları işıqlandırılmışdır. Məqalədə həmçinin, milli mənlik şüuru, ana dili, dini və milli-mənəvi dəyərlərə sadiqlik, əxlaq və ədalət, türk-islam birliyi, klassik irs və müasirlik arasında varislik, xəlqilik və bəşərilik kimi mühüm məsələlərlə yanaşı bu sahədə Ulu öndər Heydər Əliyevin gördüyü tədbirlərdən danışılır.*

**Açar sözlər:** qloballaşma, Heydər Əliyev, milli-mənəvi dəyərlər, islam, milli mənlik, dövlətçilik

Dünyada baş verən elmi-texniki, sosial-iqtisadi, ictimai-siyasi və milli-mənəvi sahədə əldə edilən uğurlar, tarix boyu əldə edilən nailiyyətlərə əhəmiyyətli dərəcədə təsir etməyə başlamışdı. Bu cür proseslərin inkişafı və pillələrarası inteqrasiyanın sürətlənməsi bilavasitə informasiya texnologiyasının inkişafı ilə bağlıdı. Sosial-iqtisadi cəhətdən inkişaf edən Azərbaycan Respublikası dünyada baş verən qloballaşma prosesində kənarda qalmamşdı.

Öz geosiyasi əhəmiyyətinə görə Şərq və Qərb arasında olan münasibətlərdə körpü rolunu oynayan Azərbaycan dünyəvi dövlət quruculuğunda bu cür inteqrasiya prosesinə öz tövhəsini verə bilmişdi. Bu istər siyasi-iqtisadi, istərsə də mədəni sahələrdə öz əksini tapmışdı. 8 sentyabr 2000-ci il tarixində Nyu-Yorkda BMT-nin "Minilliyin sammiti"ndə iştirak edən Azərbaycan prezidenti Heydər Əliyev Baş Assambleyanın təntənəli iclasında çıxış edərkən Azərbaycanın bu sahədə əhəmiyyətini dəyərləndirərək demişdi: “Azərbaycan qloballaşmanın inkişafına müsbət mənada öz tövhəsini verir. Mənim ölkəm dünya miqyasında geostrateji əhəmiyyətə malik öz coğrafi mövqeyindən, ehtiyatların-

dan və potensialından istifadə edərək ... gələcəyə istiqamətlənən körpü rolunu səmərəli surətdə həyata keçirir” (1, 3-4).

H.Əliyevin doğma xalqının və müstəqil Respublikamızın inkişaf meyllərini dəyərləndirmək üçün onun dərhal Nyu-York çıxışından sonra 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azəraycan xalqına müraciət edir. Bu müraciəti faktiki olaraq Ulu Öndərin milli-mənəvi dəyərlərlə bağlı Proqram sənədi hesab etmək olar (2, 7).

XX əsrə qiymət verdikdə Ulu Öndərin müraciətində qeyd edirdi ki, başa vurduğumuz yüzillik dünya xalqlarının yaddaşında sürətli elmi-texniki tərəqqi və iki Dünya müharibəsi və millionlarla insanların tökülmüş qanları ilə, imperiyaların süqutu, müstəmləkə sisteminin dağılması və yeni suveren dövlətlərin yaranması ilə, soyuq müharibə, onun yaratdığı fəsadlar və sülh və əmin-amanlığın qorunmasında kollektiv müqavimətlə yadda qalacaqdı (3). Şübhəsiz, müasir Azərbayanın memarı kimi Ulu Öndərimiz müasir dövrə baş verən siyasi proseslərlə bağlı öz qiymətini verərkən xalqa müraciətində öz tövsiyyələrini də verməyi unudmamışdı. Müasir dünyanın inkişaf qanununauyğunluqlarını yüksək peşəkarlıqla qiymətləndirən mərhum Heydər Əliyev qeyd edir ki, hazırki dünyanın başlıca inkişaf meylləri mədəni inteqrasiya və qloballaşmadı (4, 8).

Bu müraciətdən göründüyü ki, müasir dünyada bəşəriyyətin qaçılmaz yolu olan inteqrasiya və qloballaşmada hər bir ölkənin milli-mənəvi dəyərləri nəzərə alınmalıdı (3).

Ulu Öndərin azərbaycançılıq fəlsəfəsinin, humanitar siyasətinin konseptual əsaslarını əks etdirən zəngin mədəniyyətşünaslıq irsinin və maarifçilik fəaliyyətinin tədqiqi və mənimsənilməsi müasir qloballaşma dövründə xüsusilə əhəmiyyətlidi (2, 8-9), çünki müxtəlif güc mərkəzlərinin, dinlərin və mədəniyyətlərin kəsişdiyi yerdə yerləşən Azərbaycan beynəlxalq daxili hüquqi normalara əsaslanaraq demokratik, hüquqi, dünyəvi dövlət kimi beynəlxalq sistemə inteqrasiya etməkdədir.

Müasir dünyanın təzahürlərini dəqiqliyi ilə qiymətləndirən Ulu Öndər qlobalizmin yeni müstəqillik əldə edən ölkələr üçün hansı fəsadlar yaradacağına da gözəl anlayırdı. Bunu o aşağıdakı fikirləri ilə təsdiqləyirdi: “Dünya inkişafının indiki mərhələsinin başlıca meylləri mədəni inteqrasiya və qloballaşmadır. Əgər bəşəriyyət XX əsrin elmi inkişafın nailiyyətlərinin yaratdığı xoş ümidlərlə qarşılaşmışdırsa, qloballaşma prosesi çox vaxt heç də nikbinlik doğurmur. Bu mürəkkəb və birmənalı qiymətləndirilməyən prosesin perspektivləri hamımızı düşündürür. Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir. Sözsüz ki, beynəlxalq hüquq prinsipləri və normalarının aliliyi, dəyişikliklərin təkamül xarakteri, qarşılıqlı etimad və ümumbəşəri dəyərlərə sədaqətlə yanaşı, hər bir ölkənin səciyyəvi milli cəhətlərinin də nəzərə alınması bu prosesin müəyyənedici istiqamətləri olmalıdır. Təbii ki, qloballaşmanın bir çox ölkələr üçün yaratdığı problemlər bizi də düşündürür” (3).

Tarix göstərdi ki, bütün bunlar milli mənlik şüurunu oyadaraq, əslində müstəqilliyimizi yetişdirən əsas amillərdən oldu, digər tərəfdən, müstəqilliyimizin ilk illərindən dövlət quruculuğu milli ideologiyanın yaradılmasını aktuallaşdırdı. Bu tarixi-milli vəzifəni də məhz Ulu Öndər Heydər Əliyev yerinə yetirdi, dünya azərbaycanlılarının milli birliyinin ideoloqu, təbliğatçısı və təşkilatçısı olmaq missiyasını öz üzərinə götürərək böyük uğurla həyata keçirməyə başladı. Beləliklə də Heydər Əliyevin milli-mənəvi dəyərlərə münasibəti onun yaradıcısı olduğu azərbaycançılıq ideologiyasının mühüm tərkib hissəsi kimi şərh edilməlidir (4). Milli tərbiyəyə Heydər Əliyevin konseptual baxışı belədir: “Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Bu gün mənəvi tərbiyə keçmiş illərdən daha çox lazımdır” (5). Vətəndaşlıq idealını, dövlətçilik əqidəsini, minlilik və digər mədəniyyətlərə açıqlığı, tarixi ənənə və tərəqqinin vəhdətini ehtiva edən azərbaycançılığın təməl anlayışlarından biri də xalqımızın eyni tarixi köklər, dil, mədəniyyət və mənəviyyat ortaqlığı ilə bağlandığı türk və islam dünyası ilə birliyinin prioritetliyidir. Türk xalqlarının birliyini, “bir millət – iki dövlət” formulu ilə ifadə olunan konseptual ideyasını ilk növbədə gerçək fəaliyyət, əməkdaşlıq, tərəfdaşlıq proqramı kimi təqdim edən Heydər Əliyevin bu birliyin ideoloqu və təşkilatçısı kimi həyata keçirdiyi tədbirlər, imzaladığı fərmanlar, sərəncamlar bu baxımdan müstəsna rol oynamış tarixi hadisələr kimi şərh edilməlidir. İslamı Azərbaycan xalqının, bütün müsəlmanların “ən ali əxlaq mənbəyi” hesab edən Heydər Əliyev bütün fəaliyyəti boyu milli-mənəvi və dini-əxlaqi meyarlara əsaslanır və bu meyarlar onun dövlət siyasətinin milliliyində və humanistliyində köklənirdi (4). Məhz bu ideya milli dirçəliş konsepsiyasının özəyini təşkil edir.

Azərbaycan mədəniyyətinin və mənəviyyatının təcəssümü olan klassik abidələrə və sənətkarlara həssas münasibət Ulu Öndərin aparıcı keyfiyyətlərindən idi. Buna misal kimi Ulu Öndərin 1998-ci ilin iyunun 13-də “Tarix və Mədəniyyət abidələrinin qorunması haqqında” fərmanı xüsiusi məna kəsb edir (6). O, 1999-cu ilin oktyabrın 14-də Əbubəkr Əcəminin inşa etdiyi Mömünəxatunun türbəsində təntənəli çıxış edir (7, 200). Abidələrin qorunması, bərpa və qazıntı işləri YUNESKO-nun Ümumdünya mədəni və təbii irsinin qorunması Konvensiyası, Arxeoloji irsin qorunması haqqında Avropa Konvensiyası və “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” qanunundan irəli gələrək Ulu Öndər 2003-cü il fevralın 17-də “Bakı şəhərində İçərişəhər tarixi-memarlıq qoruğunun mühafizəsi ilə bağlı bəzi tədbirlər haqqında” sərəcam imzalayır (8). Sərəncamda deyilir ki, “Azərbaycanın paytaxtı Bakı şəhərinin qədim və zəngin tarixi vardır. Ulu əcdadlarımızın bizə yadigar qoyduğu bu gözəl şəhərin hər bir güşəsi, hər bir daşı Azərbaycan xalqının yüksək dühasını, büyük qüdrətini, ulu mədəniyytini əyani şəkildə nümayiş etdirir ... Bakının ən qədim, vaxtilə bütövlükdə qala divarları ilə əhatə olunmuş hissəsi İçərişəhərdir. Orada bu günə qədər qorunub saxlanılmış müdafiə, dini ibadət, ictimai və məişət xarakterli bir sıra tikililərin və qurğuların mühəndis-memarlıq həllinin kamilliyi xalqımızın mədəniyyət tarixində mühüm yer tutam memarlıq

məktəblərinin yüksək səviyyəsindən xəbər verir" (8). Bu məzmunda verilən sərəncamlar arsında Prezidentimizin vəfatından bir qədər əvvəl "Şabran şəhəri" tarixi və mədəniyyət abidəsinin qorunması haqqında" (9, 300) imzaladığı sərəncaamı da qeyd etməliyik.

Heydər Əliyevin mədəniyyət nəzəriyyəsini öyrənərkən burada biz prinsipial dövlətçilik mövqeyini, azərbaycançılıq ideologiyasını bütövlüklə müşahidə edirik. 1998-ci ildə ikinci dəfə Prezident seçilməsi ilə əlaqədar rəsmi qəbulda Ulu Öndər demişdir: "Azərbaycan mənim ürəyimdir. Azərbaycan mənim nəfəsimdir. Azərbaycan mənim həyatımdır. Azərbayacan haqqında hər bir vətəndaş öz ürək sözlərini deyə bilər. Mənim ürəyim daim öz doğma vətənim Azərbaycanla bağlı, Azərbaycan haqqında hissiyyatlarla dolu olubdur" (10, 75).

Müstəqil Azərbaycan dövləti bütün sahələrdə olduğu kimi, dil siyasətində də ulu öndərin strateji kursuna sadiq qalaraq onun siyasi xəttini dönmədən və uğurla həyata keçirir. Bizim dilimizin əhəmiyyətini dəyərləndirərkən Ulu Öndərimiz deyirdi: "Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir" (11, 200). Dövlət dilinin qorunması və işləkliyinin təmin edilməsi ölkəmizdə müstəqil dövlət quruculuğunun prioritet istiqamətlərindəndir. Ümummilli liderimiz Heydər Əliyev hələ sovet dövründə mərkəzin ciddi müqavimətinə baxmayaraq, respublikamızda Azərbaycan dilinin dövlət dili statusunun 1978-ci il Konstitusiyasında əks olunmasına nail ola bilmişdi. Buna görə də Heydər Əliyevin prinsipiallığı nəticəsində 1978-ci il Konstitusiyasına məşhur 73-cü maddə daxil edildi (12). 1995-ci ilin oktyabr ayında Azərbaycan Milli Elmlər Akademiyasında dilimizlə bağlı olaraq keçirilən ümumrespublika müzakirəsində ulu öndər o gərgin mübarizəni və qələbəni belə xatırlayır: "Xatirimdədir, o vaxt başqa respublikaların rəhbərləri ilə kəskin danışıqlarımız oldu. Ukraynanın rəhbəri Şerbitski ilə mənim kəskin danışıqlarım oldu. O, buna çox etiraz edirdi, belə əsaslandırırdı ki, siz belə yazdığınız halda, gərək biz də yazaq ki, Ukraynanın dövlət dili Ukrayna dilidir. Mən ona dedim ki, sizə heç kəs mane olmur. Siz bizdən də böyük respublikasınız və Sovetlər İttifaqında sizin çəkiniz bizimkindən qat-qat artıqdır. Siz istəsəniz, bunu yaza bilərsiniz. Siz nə üçün bizə mane olursunuz. Ancaq biz buna nail olduq. Hesab edirəm ki, bu, o dövrdə, o zamanın şəraitində respublikamızda, ümumiyyətlə, ölkəmizin tarixində çox böyük hadisə oldu" (13).

Prezident Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinə rəhbərlik etdiyi ilk günlərdən etibarən yeni tarixi şəraitin ruhuna və tələblərinə uyğun olaraq Azərbaycan dilinə göstərilən diqqət və qayğı həm siyasi, həm də praktiki cəhətdən fərqlənirdi. Əvvələn bu nəzərə alınmalı idi ki, onun dil siyasəti nəticəsində Azərbaycan dili ölkənin tam mənada qeyri-şərtsiz dövlət dili olmuşdur. Digər tərəfdən, Ümummilli Liderin yorulmaz fəaliyyəti nəticəsində Azərbaycan dili daim dövlətlərarası münasibətlərdə dövlətlərarası münasibətlər

dilinə, siyasi dialoq və diplomatik danışıqlarda istifadə edilmiş status qazana bilmişdi (11, 230). Göründüyü kimi, Heydər Əliyev, qurub-yaratdığı Azərbaycanda xalqın mədəni, intellektual, milli-mənəvi inkişafının təməllərindən biri kimi milli dil siyasətinə böyük əhəmiyyət verirdi, bu yolda bir əsgər kimi mübarizə aparırdı. Ulu Öndərin 18 iyun 2001-ci il tarixində imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman da həmin mübarizənin davamı idi (13). Ulu öndər "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" verdiyi fərmanda Azərbaycan Respublikasının onillik inkişaf təcrübəsi haqqında danışarkən bunu da qeyd etmişdi ki, "Ana dilimizin öyrənilməsi və tətbiqi sahəsində də hələ görüləsi işlər çoxdur. Ölkəmizin orta və ali məktəblərində Azərbaycan dilinin müasir dünya standartlarına, milli-mədəni inkişaf tariximizin tələblərinə cavab verən tədris işinin təkmilləşdirilməsinə ehtiyac vardır. Bir çox kütləvi informasiya vasitələrində, rəsmi yazışmalarda, kargüzarlıq və sair sahələrdə Azərbaycan ədəbi dilinin normalarına lazımınca əməl edilmir. Azərbaycan dilinin reklam işində istifadə edilməsində ciddi qüsurlar müşahidə edilir. Əcnəbi dilli lövhələr gənc nəslin azərbaycançılıq ruhunda tərbiyəsinə mənfi psixoloji təsir göstərir. Ölkə ərazisində yayımlanan televiziya kanallarının əksəriyyəti xarici dillərdə fəaliyyət göstərir."

Çıxışlarından birində o demişdi: "Millətin milliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliyini təsdiq edir. Amma millətin milliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində ədəbiyyat da olmaz, Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz ... Mən hər bir dilə öz hörmət və ehtiramımı bildirirəm. Amma hesab edirəm ki, öz dilimizlə - Azərbaycan dili ilə hər birimiz fəxr edə bilərik. Çünki bu, zəngin dildir, artıq dünyada tanınmış dildir. Xalqımızın adı da tanınıb, respublikamızın adı da tanınıb, dilimizin adı da tanınıb. Bu, reallıqdır" (11, 284-285).

1991-ci il dekabrın 25-də Azərbaycan Ali Soveti latın qrafikalı Azərbaycan əlifbasının bərpa olunması ilə bağlı qərar qəbul etdi. Bunun tam rəsmi tətbiqinə 10 il sonra başlanıldı. Azərbaycan Respublikası ərazisində bütün idarə-müəssisələr, dövlət və qeyri-dövlət qurumları, Azərbaycan dilində olan bütün nəşrlər latın qrafikalı əlifbaya keçdilər. Bu tarixi proses prezident Heydər Əliyevin 18 iyun 2001-ci il tarixli fərmanına əsasən gerçəkləşdi. Prezident Heydər Əliyev latın qrafikalı əlifbanın tətbiqinin Azərbaycanının siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə olduğunu nəzərə alaraq 2001-ci il avqustun 9-da daha bir fərman imzaladı. Həmin fərmanla 1 avqust - Azərbaycan əlifbası və Azərbaycan dili günü elan edildi. Həmin vaxtdan etibarən hər il avqust ayının 1-i Azərbaycan Respublikasında Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilir (15).

Bütün qeyd olunan faktlar bir daha göstərir ki, Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bütün sahələrdə olduğu kimi, dini sahədə də inkişaf olmuş, xüsusilə milli-mənəvi dəyərlərə diqqət yetirilmişdir. Milli-mənəvi dəyərlərimizin əhəmiyyətindən ümumilli liderimiz hər çıxış və nitqində vurğula-

mışdır. Bu gün də onun yeritdiyi siyasəti uğurla İlham Əliyev davam elətdirir.

**ƏDƏBİYYAT**


1. Dirçəliş. XXI əsr. 2000, № 9, s.3-4
2. Hüseynova Leyla Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri (müstəqillik dövrü). Bakı Təhsil. 2012. s.7.
3. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciəti. Bakı.29 dekabr 2000-ci il
4. Abdulla Kamal Heydər Əliyev və milli-mənəvi dəyərlər //http: //anl.az/down/meqale/525/2011/may/cm07.htm
5. Heydər Əliyev // http://pirimov.com/2011/01/13/heyd%C9%99r-%C9%99liyev/
6. "Tarix və Mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanunun tədbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanı // Bakı şəhəri. 13 iyun 1998-ci il // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. 1998
7. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin milli memarlığımızın möhtəşəm abidəsi, XII əsrdə görkəmli Memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin yaratdığı Möminə xatun türbəsini ziyarəti zamanı çıxışı // Naxçıvan şəhəri, 14 oktyabr 1999-cu il // Əliyev Heydər Müstəqilliyimiz əbədidir. 22-ci kitab. Bakı. Azərnəşr. 2007.s.267
8. "Bakı şəhərində İçərişəhər tarixi-memarlıq qoruğunun mühafizəsi ilə bağlı bəzi tədbirlər haqqında" sərəcam // Bakı şəhəri, 17 fevral 2003-cü il // prezident kitabxanası // www.preslib.az
9. "Şabran şəhəri" tarixi və mədəniyyət abidəsinin qorunması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı// Heydər Əliyev və mədəniyyət. Üç clddə (üçüncü cild) 1999-2003. Bakı Nurlan. Nəşriyyat-Poliqrafiya Mərkəzi. 2008, s.519
10. Əliyev Heydər Müstəqilliyimiz əbədidir. Oktyabr 1998 – dekabr 1998. VII kitab. Bakı: Azərnəşr, 2006, s.75
11. Əliyev Heydər Müstəqilliyimiz əbədidir. May, 2003 – oktyabr, 2003. 44–cü kitab. Bakı: Azərnəşr, 2013, s.278
12. Bədəlov Əliqismət Azərbaycan dilinin dövlət dili kimi rəsmiləşdirilməsi və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır// Xalq qəzeti. 1 avqust 2009.- http://anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_avqust2009/87735.htm
13. Əliyeva Jalə Heydər Əliyev və ana dilimiz //Xalq qazeti. 8 may.2010. // http://anl.az/down/meqale/xalqqazeti/2010/may/118802.htm
14. 1 avqust - Azərbaycan əlifbası və Azərbaycan dili günüdür // http://a-r.az/node/151#.VS_j-NysU_M
15. Kitabi-Dədə Qorqud dastanının 1300 illik yubileyi üzrə dövlət komissiyasının iclasında Azərbaycan Prezidenti Heydər Əliyevin Giriş sözü // Heydər Əliyev və mədəniyyət. 3 clddə (III c.) 1999-2003. Bakı: Nurlan, 2008, s.15-22 /536 s./ ;
16. Məmmədov Ramiz Heydər Əliyev və milli mənəviyyatımız. Bakı: Nasir, 2004, s. 95.


## В ЭПОХУ ГЛОБАЛИЗАЦИИ ОТНОШЕНИЕ ГЕЙДАР АЛИЕВА НАЦИОНАЛЬНЫХ И НРАВСТВЕННЫХ ЦЕННОСТЕЙ


**С.Ш.БАХРАМОВА**


**РЕЗЮМЕ**


В данной статье говорится о роли расположенного между западом и востоком Азербайджана в процессе интеграции в строительстве светского государства. В статье освещается деятельность выдающегося государственного деятеля, Общенационального

лидера азербайджанского народа Гейдара Алиева, посвятившего свою жизнь своей Родине и своему народу, в сохранении национально-культурных ценностей, развитии культуры. В статье также рассказывается о национальном самосознании, родном языке, религии, национально-культурных ценностях, тюркско-исламском единстве, связи между классическим наследием и современностью и мероприятиях в данной области, проведенных Общенациональным лидером Гейдаром Алиевым.

**Ключевыеслова:** глобализация, Гейдар Алиев, национально-культурные ценности, национальное самосознание, государственность

## HAYDAR ALIYEV'S ATTIRUDE TO NATIONAL-MORAL VALUES IN THE AGE OF GLOBALIZATION

**S.Sh.BAHRAMOVA**

### SUMMARY

This article highlights the role of Azerbaijan, located between East and West in the integration processes in the construction of a secular state. The article highlights the work of the outstanding statesman and National leader of the Azerbaijani people Heydar Aliyev, who devoted his life to his country and people, in the preservation of national cultural values and the development of culture. The national identity, native language, religion, national and cultural values, Turkic-Islamic unity, the relationship between the classical heritage and modernity and activities of the National leader Heydar Aliyev in this area are described in the article.

**Key words:** globalization, Heydar Aliyev, national and cultural values, national identity, statehood